**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT**
**MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ALTUN MƏMMƏDHÜSEYN qızı MİKAYILLI**

# NİZAMİ MUZEYİNİN XALÇA FONDUNDAKI ƏSƏRLƏRİN JANR VƏ KOMPOZİSİYA XÜSUSİYYƏTLƏRİ

6220.01 – Muzeyşünaslıq

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

BAKI – 2017

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Mədəni irs və mənbəşünaslıq" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbərlər:** | **Rafael Baba oğlu Hüseynov**<br>akademik, filologiya üzrə elmlər doktoru, professor<br>**Röya Seyfəddin qızı Tağıyeva**<br>*sənətşünaslıq üzrə elmlər doktoru, professor* |
| **Rəsmi opponentlər:** | **Ağali Müsəllim oğlu İbrahimov**<br>*Xalq rəssamı, professor*<br><br>**Mehriban Qəzənfər qızı Novruzova**<br>*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent* |
| **Aparıcı təşkilat**: | **Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi** |

Dissertasiyanın müdafiəsi ____ __________ 2017-ci il, saat ___-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin FD.02.091 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1065, Bakı, İnşaatçılar 39, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat _____ __________ 2017-ci ildə göndərilmişdir.

FD.02.091 Dissertasiya Şurasının
elmi katibi, kulturologiya üzrə
fəlsəfə doktoru, dosent: **F.R.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı**: Muzeylər nəsildən-nəslə ötürülən maddi və mənəvi abidələri toplayan, qoruyan, onların öyrənilməsini, nümayişini və təbliğini təmin edən elmi-tədqiqat müəssisələridir. Öz tarixi keçmişini bilməyən insan, bir ölkənin layiqli vətəndaşına çevrilə bilməz. Məhz muzey vasitəsilə insan öz keçmişinə nəzər salır, o dövrdə baş verən ictimai-siyasi hadisələri, əhalinin məşğuliyyəti, həmin dövrün mədəni və sosial mühiti, məşhur şəxsiyyətləri və s. haqqında ətraflı məlumat alır. Muzeylər yarandığı gündən ciddi inkişaf dövrü keçmişdir. İlkin mərhələdə onlar yalnız muzey əşyalarının mühafizəsi və daha sonra nümayişi ilə kifayətlənirdilər. XVIII əsrdən başlayaraq Avropada muzeylər elmi-tədqiqat mərkəzlərinə çevrilməyə başlamış və hal-hazırda elmi-tədqiqat mərkəzləri kimi də fəaliyyət göstərirlər.

Milli ədəbi-fəlsəfi irsimizin ən görkəmli şəxsiyyətlərindən biri olan Nizami Gəncəvinin anadan olmasının 800 illiyi ərəfəsində Bakıda yaradılan şifahi və yazılı Azərbaycan ədəbiyyatının tarixi inkişaf yollarını araşdırıb nümayiş etdirən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi də elmi-tədqiqat müəssisəsi kimi fond və ekspozisiya zallarında qorunub, sərgilənən eksponatlar üzərində elmi tədqiqat işləri aparır. Faktlara əsaslanaraq demək olar ki, Nizami muzeyində nadir və unikal eksponatlar qorunub saxlanılır və təbliğ edilir. Hazırda muzeydə yüz mindən çox eksponat var. B.Nəbiyev "Hikmət və gözəllik xəzinəsi" adlı məqaləsində muzeydəki eksponatlar haqqında belə yazır: "Bu dəyərli eksponatlar içərisində Azərbaycanın görkəmli klassiklərinin çox qiymətli əlyazmaları, yeni dövr yazıçılarının avtoqrafları, nadir kitablar, şifahi xalq ədəbiyyatının əvəzsiz nümunələri, qədim miniatürlər, müasir sənətkarların mənzərə, portret və illüstrasiyaları, bədii süjetli xalçalar, xalq tətbiqi sənət əsərləri, qiymətli sikkə kolleksiyası, qədim keramika, memarlıq əsərlərinin ünsürləri və bir çox başqa eksponatlar vardır. Əməkdaşların səyi nəticəsində muzeyin fondu daim zənginləşir".[1]

Muzeyin unikal eksponatları qorunan fondları içərisində Mədəni irs və mənbəşünaslıq şöbəsinin İncəsənət bölməsinə daxil olan xalça fondunun eksponatları xüsusi yer tutur. Zəngin tarixə malik Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən bu kolleksiya

---

[1] Nəbiyev B. Hikmət və gözəllik xəzinəsi. Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin əsərləri. Bakı: Elm, 1978, s.8.

estetik gözəlliyin, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir. Muzeyin "İncəsənət fondu" kataloqunda qeyd olunur ki, "ayrı-ayrı ədəbi şəxsiyyətlərin evindən gətirilmiş, yəni şəxsi əşyaları sayılan M.F.Axundov, N.B.Vəzirov, C.Məmmədquluzadə, N.Nərimanova məxsus xalçalardan başqa, müasir xalça ustaları yubileylər münasibətilə şair və yazıçıların (Ə.Naxçivani, X.Natəvan, İ.Nəsimi, C.Məmmədquluzadə, M.Füzuli) obrazlarını ilmələrə köçürmüşlər. Xalça fondunda öz qədimliyi, tarixiliyi ilə seçilən eksponatlar da mühafizə edilir. Tamaşaçıların, sənət adamlarının diqqətini cəlb edən XIX-XX əsrlərdə respublikamızın ərazisində və Güney Azərbaycanda toxunmuş xalçalardan “Məlikməmməd”, “Yusif və Züleyxa”, “Leyli və Məcnun”, “Dörd fəsil”, “Bəhram Gur və Fitnə ovda” və s. adını çəkmək olar. Bu fondda eyni zamanda sənət baxımından maraq doğuran namazlıq xalçaları, kilimlər və s. də qorunur".[1]

Azərbaycan xalçalarının xüsusi dəyəri ondadır ki, burada sadəcə naxış və ornament yığımı təqdim olunmur. Bu xalçalardakı süjet, ornament və naxışlar hər biri ayrılıqda müstəqil mənaya malik olsalar da xalçada biri-birinə tabe olaraq ümumi sintez və ahəng yaradıb möhtəşəm kompozisiya təşkil edirlər. Azərbaycanda mükəmməl xalçaçılıq məktəbinin formalaşması danılmaz bir faktdır.

Respublikamızın tədricən artan iqtisadi potensialı əsasında milli-mədəni dəyərlərimizin qorunmasına olan diqqət də güclənir və nəticədə muzeylər sürətli tərəqqi dövrünü yaşayır. Buna ən bariz misal odur ki, hələ 2000-ci ildə ulu öndər Heydər Əliyev "Muzeylər haqqında" qanun imzalamışdır. Məhz bu qanun imzalandıqdan sonra zəngin kolleksiyalara malik muzeylər təmir olundu, fond və ekspozisiyalar müasir texniki avadanlıqlarla təchiz edildi. Mədəniyyət sahəsində davamlı olaraq böyük layihələr həyata keçirilir. Dövlətimiz mədəniyyət və incəsənətə göstərdiyi diqqət və qayğı ilə yanaşı mədəni irsimizin beynəlxalq miqyasda təbliğatı işinə də xüsusi önəm verir. 2005-ci il fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev “Azərbaycanda xalça sənətinin qorunması və inkişafı haqqında” qanunun icra edilməsi barədə sərəncam imzaladı. Qanun Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi sahəsində Dövlət Proqramının qəbul edilməsi, Azərbaycan xalçası reyestrinin tərtib olunması, itirilmə təhlükəsi olan nadir

[1] AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi İncəsənət fondu: Kataloq/X.B.Bəşirova, S.H.Hüseynovanın redaktələri ilə. Bakı: Şərq-qərb, 1999, s.4.

Azərbaycan xalçalarının və xalça məmulatlarının müasir üsullarla bərpası, xarici ölkələrin muzeylərində saxlanılan Azərbaycan xalçalarının ölkəyə qaytarılması, ölkə daxilində və xaricdə muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalçaları barədə kataloqun hazırlanması, eləcə də təhsil müəssisələrində xalça sənəti üzrə kadrların hazırlanması, xalça sənətinə dair elmi-tədqiqat işlərinin əlaqələndirilməsi məsələlərini ehtiva edir.

Xalça sənətinə olan qayğının ən yüksək mərhələsi müasir standartlara uyğun, yeni texnologiyalarla təchiz edilmiş füsunkar görünüşü olan Azərbaycan Xalça Muzeyinin yeni binasının tikilib istifadəyə verilməsi oldu. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev muzeyin təməlqoyma mərasimində xalça haqqında aşağıdakı dəyərli fikirləri söylədi: “Xalçaçılıq sənəti Azərbaycan mədəniyyətinin bir hissəsidir. Qədim dövrlərdən xalçaçılıq sənəti Azərbaycanda yaşayır və inkişaf edir. Azərbaycan xalçası öz gözəlliyi, keyfiyyəti ilə həmişə seçilmişdir. Eyni zamanda, Azərbaycan xalçası xalqımızın istedadını göstərir. Xalçaçılıq xalq sənətidir. Ancaq, eyni zamanda, Azərbaycanın görkəmli xalçaçılıq ustaları Azərbaycan xalça sənətinin zənginləşməsinə öz böyük töhfələrini vermişlər. Azərbaycan xalçaları dünyanın ən məşhur muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır və nümayiş etdirilir. Bir sözlə, onu deyə bilərəm ki, xalçaçılıq sənəti hər bir azərbaycanlı üçün çox doğma, əziz sənətdir və hər bir azərbaycanlı öz həyatını xalçasız təsəvvür edə bilmir”.[1]

Xalça sənəti ilə bağlı növbəti uğur Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və əməyi nəticəsində əldə edildi. Azərbaycan xalçaçılıq sənəti 16 noyabr 2010-cu ildə YUNESKO-nun “Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı”na daxil edildi. Hər il 16 noyabr tarixi ölkəmizdə Xalça Bayramı Günü kimi qeyd edilir.

Tarixə nəzər salsaq aydın olur ki, 1813-cü ildə Rusiya və İran arasında Gülüstan müqaviləsi imzalandıqdan sonra, təəssüf ki, Azərbaycan torpaqları iki dövlət arasında bölünmüş oldu. Bu və ya digər səbəblərdən möhtəşəm Azərbaycan xalçaları dünya muzeylərində, xarici kolleksiyalarda ümumiləşmiş qaydada "Qafqaz" və "İran" xalçaları kimi tanınır.

Sevindirici haldır ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra, bütün sahələrdə olduğu kimi xalça sənətində də yüksəliş müşahidə olunur.

---

[1] Azərbaycan Xalça Muzeyinin binasının təməlqoyma mərasimində Prezident İlham Əliyevin nitqi
http://archive.president.az/articles.php?item_id=20080516101605439&sec_id=11

Dünyanın məşhur muzeylərində saxlanılan Azərbaycan xalçalarına gerçək və konkret atribusiyanın verilməsi sahəsində mühüm işlər görülür. Bu sahədə sənətşünaslıq üzrə elmlər doktoru, professor Röya Tağıyevanın əməyini xüsusilə vurğulamaq lazımdır. Belə ki, onun səyi nəticəsində Gürcüstanda "Azerbaijani carpets of the Georgian national museum"[1], Çexiyada "Země věčného ohně II"[2] və s. kitab-kataloqlarda Gürcüstan Milli muzeyi və Çexiyada Ostrava şəhərinin muzeyində olan Azərbaycan xalçaları düzgün atribusiya edildi və hal-hazırda bu xalçalar dəqiq olaraq Azərbaycan xalçaları adı ilə nümayiş olunur. Lakin bir-çox xarici muzeylərdə xalçalarımız hələ də "Qafqaz" və yaxud "İran" xalçası adı ilə təqdim olunur.

Ölkəmizdə hal-hazırda turizm sahəsi də öz yüksəliş dövrünü yaşayır. Bu öz növbəsində muzeyə gələn qonaqların sayında artım deməkdir. Yerli və xarici qonaqlara müasir standartlara cavab verən muzey zalları xidmət göstərir. Ziyarətçilərə, xüsusən də xarici qonaqlara həm maddi, həm də qeyri-maddi milli sərvətimiz olan xalça sənətimiz haqqında ətraflı, elmi əsaslı məlumatların verilməsi vacibdir.

Sadalananlar Nizami muzeyindəki xalçaların daha dərindən tədqiq edilməsi və dissertasiya işinin yazılmasının zəruriliyini təsdiq edir. Belə ki, muzeydə toplanan xalçalarla, digər xarici muzeylərdə mühafizə olunan qədim Azərbaycan xalçaları arasında oxşar cəhətlərin aşkar edilməsi, bu xalçaların yaradıcılıq baxımından eyni köklü olmasını bir daha sübut edəcək. Bu, mövzunun aktuallığını şərtləndirən əsas cəhətlərdəndir.

Dissertasiya işinin aktuallığını aşağıdakı tezislərlə ifadə etmək olar:

1. Muzeylərimizin tarixi mədəniyyət və incəsənətimizin keşiyində dayanmış ali bir müəssisə kimi fəaliyyətlərinin aktuallığının bir fakt kimi göstərilməsi; AMEA-nın tərkibindəki Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin elmi-tədqiqat mərkəzi kimi kamil surətdə formalaşmasını sübut edən elmi əsərlərin təhlili və öyrənilməsinin zəruriliyi; Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin ölkəmizdəki muzeylər sistemində artıq aparıcı mövqeyə sahib olması;

2. Azərbaycanın milli sənətkarlıq nümunələri olan xalçaların informasiya daşıyıcısına çevrilməsi, onların şifahi xalq ədəbiyyatı ilə bağlılığı faktının sübuta yetirilməsi; Nizami Gəncəvi adına Milli

---

[1] Nadiradze E, Alieva L, Akhalkatsi N.Azerbaijani carpets of the Georgian national museum. Tbilisi: Favorite style, 2014, 295 p.

[2] Země věčného ohně II. Ostravské : Ostravské muzeum, přispěvková, 2012, 87 p.

Azərbaycan Ədəbiyyatı muzeyindəki xalça fondunun yalnız ekspozisiyada nümayiş etdirilən müəyyən qisminin deyil, eyni zamanda bütün xalça kolleksiyası üzərində tədqiqat işinin aparılmasının məqsədəuyğunluğu; elə bu baxımdan da muzeydə olan bütün xalçaların elmi təhlil edilməsi;

3. Muzeyşünaslıq elminin digər elmlərlə inteqrasiyası səbəblərini hazırkı mövzuya şamilən aydınlaşdırmaq; muzey eksponatlarının tədqiq edilərək - tarix, sənətşünaslıq, ədəbiyyat və s. bu kimi fənlər üçün yeni-yeni bilik mənbəyinin üzə çıxarılması;

4. Dissertasiyanın aktuallığını şərtləndirən daha bir amil Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyindəki xalçalarla, digər Azərbaycan muzeylərində, o cümlədən Azərbaycan Xalça muzeyi, İstanbuldakı Xalça muzeyi və Nyu-Yorkdakı Metropolitan muzeyində saxlanılan xalçaların qarşılıqlı olaraq müqayisəli şəkildə təhlil edilməsidir.

Göründüyü kimi, mövzunun aktuallığını şərtləndirən bütün bu amillər hazırkı mövzuda tədqiqatın aparılmasını vacib edir.

**Problemin işlənmə dərəcəsi:** Qeyd edilməlidir ki, muzeyin xalça fondunda bu vaxta kimi dərindən elmi araşdırmaların aparılmadığını deyə bilərik. Tədqiq olunan mövzu ilk dəfə olaraq Nizami muzeyinin xalça fondundakı əsərlərin öyrənilməsi və araşdırılmasına yönəlmişdir.

S.Əmirxanovun "Muzey pedaqogikası"[1], Y. Eyvazovanın "Abidəşünaslıq" və "Muzey ekspozisiyası"[2] kitablarında, E. Qurbanovanın "Azərbaycan bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu"[3] monoqrafiyasında muzey işi araşdırılmışdır.

Xarici müəlliflərin kitablarından В.Я.Гарник "Очерки истории музейного дело в СССР"[4], Б.А. Столяров "Художественный музей и эстетическое воспитание молодежи"[5], "Музееведение. Музеи исторического профиля"[6] kimi əsərlərdə muzeyşünaslıq, muzeylərin fəaliyyət istiqamətləri haqqında elmi məlumatlar yer almışdır.

---

[1] Əmirxanov S. Muzey pedaqogikası. Bakı: Mars-Print, 2004, 17s.

[2] Eyvazova Y. Abidəşünaslıq. Bakı: Mars-Print, 2017, 287 s.; Muzey ekspozisiyası. Bakı: Mars-Print, 2009, 227 s.

[3] Qurbanova E. Azərbaycan bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu. Monoqrafiya.Bakı: Afpoliqraf, 2014,159 s.

[4] Гарник В.Я.Очерки истории музейного дела в СССР. Москва.: Советская Россия, 1971, Вып.7, 291с.

[5] Столяров Б.А.Художественный музей и эстетическое воспитание молодежи. Ленинград.: Знание, 1988, 32 с.

[6] Левыкин К.Г, Хербст В. Музееведение. Музеи исторического профиля. Москва.: Высшая школа, 1988, 431 с.

Dəyərli ədəbiyyatşünas alim, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin direktoru Rafael Hüseynovun müəllifi olduğu "Nizami muzeyinin xalçaları"[1] adlı nəfis tərtibatlı kataloqda muzeyin xalça fonduna daxil olan eksponatlar öz əksini tapmışdır.

Lətif Kərimovun üç cildlik "Azərbaycan xalçası" monoqrafiyasında Azərbaycan xalça sənəti, o cümlədən süjetli xalçalar elmi cəhətdən təhlil edilmişdir.[2]

Röya Tağıyevanın "Сюжетные ковры Азербайджана" (Azərbaycanın süjetli xalçaları), "Nizami obrazları xalçalarda" kitablarında və xalça sənəti üzrə ən sanballı elmi əsər sayılan "Azərbaycan Xalçası Ensiklopediyası"nda Nizami poemaları üzrə toxunan süjetli xalçalar ətraflı tədqiq olunmuşdur.[3]

Kubra Əliyevanın "Тебризская ковровая школа XVI-XVII вв. и ее связь с ковровым искусством ближнего и среднего востока"(XVI-XVII əsrlərdə Təbriz xalça məktəbi və onun Yaxın və Orta Şərq xalça sənəti ilə əlaqəsi)[4] və Rasim Əfəndinin "Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər)" adlı kitablarında süjetli xalçalar müfəssəl şəkildə işlənmişdir.[5]

Вера Девитт Nizami Gəncəvinin 800 illik yubileyi ilə əlaqədar "Xəmsə" poemaları üzrə toxunmuş beş xalçanı ətraflı şəkildə araşdırıb və maraqlı faktlar əldə etmişdir.[6]

Nəcibə Abdullayevanın "Ковровое искусство Азербайджана" (Azərbaycan xalça sənəti) kitabında Nizami muzeyinin XIX əsrə aid olan süjetli xalçaları barədə dəyərli məlumatlar verilmişdir.[7]

---

[1] R.Hüseynov. Nizami muzeyinin xalçaları. Kataloq. Bakı, 2010.

[2] Kərimov L. Azərbaycan xəlçəsi. I c., Bakı-Leninqrad: Издательство Академии Наук Азербайджанской ССР, 1961, 96 s.; Керимов Л.Азербайджанский ковер. II том. Баку: Гянджлик, 1983, 243 с.; Керимов Л. Азербайджанский ковер. III том. Баку: Гянджлик, 1983, 303 с.

[3] Tağıyeva R. Nizami obrazları xalçalarda. Bakı, İşıq, 1991, 60s.; Tağıyeva R. Azərbaycan xalçası. Bakı-İstanbul: Undp, BP Amoco, Baku art&culture helpers, 1999, 263 s.; Тагиева Р. Сюжетные ковры Азербайджана.. Баку:Элм, 1988, 143 с.

[4] Алиева К. Тебризская ковровая школа XVI-XVII вв. и ее связь с ковровым искусством ближнего и среднего востока. Баку: Элм, 1999, 194 с.

[5] Əfəndi R. Azərbaycan Dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı: İşıq, 1976, 190 s.

[6] Девитт В. "Пять ковров, посвященных "Хамсе" Низами"/ Известия Академии Наук Азербайджанской ССР. Баку: 1954, № 9, s.87-109.

[7] Абдуллаева Н.Ковровое искусства Азербайджана. Баку: Элм,1971, 149 с.

Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyinin "İncəsənət fondu" kataloqunda muzeyin xalçalarının təsviri, müəllifləri, toxucuları və s. haqqında məlumatlar verilmişdir. [1]

Xarici müəlliflərin kitablarında, məsələn: Taher Sabahi "Tappeti piani del Caucaso"[2], Richard E.Wright "Rugs and Flatweaves of the Transcaucasus"[3], Erdmann K. "Seven hundred years of Oriental Carpets"[4], Liebetrau P. "Oriental rugs in colour"[5], Seherr - Thoss S. "Design and color in İslamic architecture: Afganistan, İran, Turkey"[6], Harold O. "The Oxford companian to the decorative arts"[7], Hasson.R. Caucasian rugs"[8], Ямпольский З.И. "Путешественники об Азербайджане"[9] və s. Azərbaycan xalçaları barədə dəyərli fikirlər və elmi məlumatlar yer almışdır.

Yuxarıda adları çəkilən tədqiqatçı alimlərin kitabları Azərbaycan xalça sənətinin öyrənilib təbliğ edilməsinə yönəldilən dəyərli əsərlərdir. Bununla belə, problemlə bağlı elmi ədəbiyyatın təhlili göstərir ki, ölkəmizdə bu günə kimi muzeylərin xalça fonduna daxil olan bütün xalçaların tədqiqi sahəsində elmi dərəcə alınmasına yönələn dissertasiya işi yazılmayıb. Bu da təqdim olunan dissertasiyanın bu sahədəki boşluğu aradan qaldırılmaqda atılan müəyyən addım kimi qiymətləndirilməsinə imkan verir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin xalça fonduna daxil olan xovlu/xovsuz xalçalar və xalça məmulatlarıdır. Tədqiqatın predmeti

---

1 AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi İncəsənət fondu: Kataloq/X.B.Bəşirova, S.H.Hüseynovanın redaktələri ilə. Bakı: Şərq-qərb, 1999, s.4.

2 Sabahi T. Tappeti piani del Caucaso. Italia: De Agostini, 1990, 216 p.

3 Wright Richard E. Rugs and Flatweaves of the Transcaucasus. Pittsburgh: PA – 1980, 123 p.

4 Erdmann K. Seven hundred years of Oriental Carpets. London: Faber and Faber limited, 1970, 238 p.

5 Liebetrau P. Oriental rugs in colour. New York: Collier-Macmillan Ltd, 1962, 130 p.

6 Seherr-Thoss S.Design and color in İslamic architecture: Afganistan, İran, Turkey. Washington: Smithsonian institution press, 1968, 312 p.

7 Harold O.The Oxford companian to the decorative arts. Great Britain: University printing house, 1975, 865 p.

8 Hasson R. Caucasian rugs. Jerusalem: L. A. Mayer Memorial Institute for Islamic Art, 1986, 163 p.

9 Ямпольский З.И. Путешественники об Азербайджане. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1961, 448 с.

Nizami muzeyinin ədəbiyyat nümunələri fonunda xalçaların muzeyşünaslıq, sənətşünaslıq, ədəbiyyat və s. sənət sahəsində təbliği işinin həyata keçirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin əsas məqsədi - - Xalça fondundakı əsərlərin süjet, janr və kompozisiya xüsusiyyətləri, rəng həlli, texnikası, haşiyə qurşağı, elmi, bədii, tarixi və muzeyşünaslıq baxımından əhəmiyyətini təhlil etməkdir. Bu məqsədi həyata keçirmək üçün tədqiqat işinin qarşısında aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

-Nizami muzeyinin ekspozisiyasında süjetli xalçaların yeri;

-XX əsrə qədərki və XX əsr "Xəmsə" mövzulu süjetli xalçaların təhlili;

-Azərbaycan tarixi, məişəti, etnoqrafiyası, Şərq ədəbiyyatı və mədəniyyətinin "Dörd fəsil" xalçasında bədii əksi. Süjetli xalçaların informasiya yükünün təbliğinin əhəmiyyəti;

-Nizami Gəncəvi yaradıcılığı miniatür sənətində və xalçaçılıqda. Nizami yaradıcılığına bağlı süjetli xalçalarda miniatür sənətindən istifadə;

-Azərbaycan ədəbiyyatı və memarlıq nümunələrinin süjetli xalçalardakı əksi;

-Azərbaycan şifahi xalq ədəbiyyatı süjetləri xalçalarda;

-Azərbaycan klassiklərinə aid portretlərin Nizami muzeyindəki xalçalarda təsviri;

-Azərbaycan xalça məktəblərinə aid ornamental xovsuz və xovlu xalçalar, xalça məmulatlarının təhlili.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**: Tədqiqat zamanı nəzəri baza kimi Nizami muzeyinin xalça fonduna, Azərbaycan Xalça Muzeyinin fondlarına, İstanbulda Xalça muzeyinin və Nyu-Yorkda Metropolitan muzeyinin ekspozisiyasına müraciət edilmişdir.

Bu mənbələr Nizami muzeyinin xalça fondunun təhlili baxımından ciddi əhəmiyyətə malikdir. Tədqiqatın metodoloji əsasını analiz və sintez, kulturologiya və sənətşünaslıq baxımından müqayisəli və sistemli təhlil, eləcə də proqnostik və statistik təhlil kimi ümummәntiqi tədqiqat üsulları təşkil etmişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası:** Muzeyşünaslıq və xalça sənəti haqqında yerli və xarici mütəxəssislərin əsərləri, dövlət və beynəlxalq səviyyədə qəbul edilmiş sənədlər, həmçinin xalça sənətinin tədqiq olunmasında əvəzsiz xidməti olan sənətşünasların kitabları dissertasiyanın yazılmasında mühüm mənbə rolunu oynamışdır.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat işinin elmi yeniliyi ondan ibarətdir ki, burada ilk dəfə olaraq Nizami muzeyinin xalça fondu dissertasiya mövzusu kimi araşdırılır və öyrənilən problemin bir sıra aspektlərinə yeni tədqiqatçı baxışı təklif olunur. İşin elmi yeniliyi konkret olaraq aşağıdakı müddəalarda öz əksini tapmışdır:

-Nizami muzeyinin xalça fondu eksponatları ilk dəfə olaraq muzeyşünaslıq aspektindən tədqiqata cəlb olunmuşdur;

-Xalça fonduna daxil olan əsərlər muzeyşünaslıq, ədəbiyyat və xalça sənəti baxımından təhlil olunmuşdur;

-Bu günə kimi sənətşünaslar tərəfindən Nizami muzeyinin xalça fonduna daxil olan yalnız "Xəmsə" motivli xalçalar araşdırılsa da, ölkəmizdə bu mövzu əsaslı olaraq tədqiq edilməmişdir. Bu baxımdan Nizami muzeyi xalça fondunun bütün xalçalarının janr və kompozisiya xüsusiyyətləri ilk dəfə araşdırılmışdır;

-Nizami muzeyində iki ədəd "Dörd fəsil" süjetli xalça mühafizə olunur. Bunlardan biri tədqiqatçılar tərəfindən araşdırılıb. Muzeyin konfrans zalında nümayiş olunan digər "Dörd fəsil" süjetli xalça üzərində isə ilk dəfə tədqiqat işi aparılmışdır;

-Süjetli xalçalar üzərində təqdim olunan klassik şairlərin əsərlərindən ibarət poetik misralar ilk dəfə tədqiq olunaraq xalçanın süjet xətti ilə müqayisəli təhlil edilmişdir;

-Muzeyin xalça fonduna aid olan eksponatların süjet xətti, kompozisiya quruluşu, rəng həlli, elmi, tarixi, bədii, muzey əhəmiyyəti, toxunma texnikası, ara sahə və haşiyələrdəki motiv və elementləri təhlil olunmuşdur;

-Tədqiqat işində muzeyşünaslıq müstəvisində Nizami muzeyinin xalçalar vasitəsilə mədəniyyət və ədəbiyyatımızın təbliğatı məsələsi araşdırılmışdır;

-Nizami muzeyi xalça fondunda qorunan eksponatların cəmiyyətin sosial, mədəni həyatında və təhsilində oynadığı rol tədqiq edilmişdir;

-Nizami muzeyi xalça fondu ilə yerli və xarici muzeylərdə olan xalça nümunələrinin janr və kompozisiya cəhətdən oxşar və fərqli cəhətləri təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqatın müddəalarından, nəzəri və praktiki əhəmiyyət kəsb edən nəticələrindən muzeyşünaslıq və sənətşünaslıq sahəsi üzrə fəaliyyət göstərən tədqiqatçılar və mütəxəssislər tərəfindən, eləcə də ali məktəblərdə müvafiq kursların tədrisində, mövzu ilə bağlı mühazirələrin, elmi konfransların hazırlanmasında, həmçinin muzeyin ekskursiya mətnində istifadə oluna bilər.

Dissertasiya işinin nəticələri və materialları bu istiqamətdə daha dərin elmi axtarışların aparılması üçün zəmin ola bilər.

**Tədqiqatın aprobasiyası:** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Mədəni irs və mənbəşünaslıq" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri xaricdə və ölkədə nəşr olunan elmi jurnallarda, elmi praktik konfransların materiallarında elmi məqalə və tezislər formasında dərc olunmuşdur.

**Tədqiqat işinin strukturu:** Dissertasiya işi giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İllüstrasiyalar albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Nizami muzeyinin xalça fondundakı əsərlərin mövzu, ideya və quruluş xüsusiyyətləri muzeyşünaslıq və xalçaşünaslıq müstəvisində"** adlı I fəsli iki yarımfəsildən ibarətdir.**"Azərbaycan xalça sənətinin tarixinə ümumi baxış"** başlıqlı I yarımfəsildə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin Azərbaycan muzeylər sistemində tutduğu mövqedən, Azərbaycan xalça sənətinin tarixi, bədii-texniki xüsusiyyətləri və xalqımızın həyat və məişətindəki önəmindən bəhs edilir. Xalça fondu eksponatlarının muzey dəyərinin müəyyənləşdirilməsində əsas amillər: qədim tarixi, orijinal süjetləri, kompozisiyaları, texniki xüsusiyyətləri və s. təhlil edilib. Bu yarımfəsildə xalça fondu əşyalarının fakturası, yəni toxunma zamanı istifadə edilən materialların keyfiyyəti, bitkilərdən alınan təbii boyalarla rənglənən iplərdən hazırlanan məhsulların daha davamlı və uzunömürlü olması məsələsi işıqlandırılmışdır. E.Gans-Ruedin "The connoisseur's guide to oriental carpets" kitabında belə qeyd edir: "Azərbaycanın iqlimi qoyun saxlamaq üçün mükəmməldir. Azərbaycan haqlı olaraq yüksək keyfiyyətli yunu ilə məşhurdur".[1] Sadalanan cəhətlərin hər birini özündə əks etdirən xalça fondundakı əşyaların muzey əhəmiyyətli olduğu vurğulanır. Araşdırmalardan məlum olur ki, muzeydə mühafizə olunan xalçalar ədəbiyyat, tarix, etnoqrafiya və s. sahələri özündə əks etdirir.

---

[1] Gans-Ruedin E. The connoisseur's guide to oriental carpets. Tokyo: Charles E. Tuttle Company, 1971, s.112.

Azərbaycan xalça sənətinin tarixinə ümumi baxışın nəticəsi kimi aşağıdakı qənaətə gəlinib:
- Nizami muzeyində mühafizə olunan xalçaların bədii-texniki xüsusiyyətləri özündə Azərbaycan xalça sənətinin ənənələrini tam, dolğun ifadə etdirir.

Birinci fəslin "**Azərbaycan süjetli xalçaları ilə onların yaranmasında mühüm rolu olan miniatür sənətinin ortaq süjetləri**" adlı II yarımfəslində Azərbaycan təsviri sənətinə dünya şöhrəti qazandıran miniatür sənətindən və klassik Şərq poeziyasının (Firdovsi, Nizami, Hafiz və b.) rəssamların təxəyyülündə dərin yaradıcılıq təəsüratı yaradaraq çoxlu sayda incəsənət əsərlərinin yaradılmasına səbəb olmasından bəsh edilmişdir. Təbriz miniatür məktəbi və məşhur miniatürçü rəssamlar Sultan Məhəmməd, Ağa Mirək, Mirzə Əli, Müzəffər Əli və Mir Seyid Əli və b. "Xəmsə" motivli əsərləri tədqiq edilmişdir. Həmçinin, dahi Nizami Gəncəvinin "Xəmsə" poemalarının həm miniatür, həm də süjetli xalçalar üçün tükənməz mənbə olması qeyd olunmuşdur. Bu yarımfəsildə Metropolitan muzeyində nümayiş olunan "Xəmsə" süjetli miniatürlərlə Nizami muzeyindəki XIX-XX əsrlərə aid "Xəmsə" ("İki bayquşun söhbəti", "Xosrov və Şirin", "Xosrovun ölümü", "Leyli və Məcnunun səhrada görüşü", "Məcnun vəhşi heyvanlar arasında", "Fərhad qayanı yararkən", "Bəhram Fitnə ilə ovda", "İskəndər Nüşabə ilə gəzintidə") motivli xalçaların süjetlərinin müqayisəli təhlili öz əksini tapıb. Beləliklə, Azərbaycan süjetli xalçaları və bu süjetlərin yaranmasında mühüm rolu olan miniatür sənətinin təsnifatı bölümünün tədqiqi aşağıdakı nəticələri söyləməyə əsas verir:
- Nizami Gəncəvinin yaşadığı dövrü (XII əsr) nəzərə alsaq, "Xəmsə" motivləri tarixi əhəmiyyət daşıyır;
- "Xəmsə" süjetləri qədim tarixə və orijinal süjetlərə malik olduqlarına görə muzey əhəmiyyətli nümunələrdir;
- "Xəmsə" süjetləri həm tarixi, həm də muzey dəyəri kəsb etdikləri üçün qiymətli kolleksiyalara malik dünya muzeylərinin fond və ekspozisiyasında qorunur və nümayiş olunur;
- Miniatür sənətindəki süjetlərin xalça sənətində əks olunması, bir növ fəlsəfi, etik, estetik, tərbiyəvi xarakterli ideyaların, tarixi faktların daha geniş kütləyə çatdırılmasına zəmin yaratmışdır;
- Miniatürlərdə olan təsvirlərin – insan və digər canlıların təsvirlərindəki proporsiya, memarlıq abidələri və təbiət təsvirlərindəki perspektiv qanunauyğunluq xalça sənətində uğurla tətbiq olunub;

- Nizami muzeyində mühafizə olunan xalçalar ilə xarici muzeylərdə mühafizə olunan Azərbaycan xalçalarının oxşar süjetləri aşkarlanaraq, onlar arasında uyğun və fərqli məqamların olması qənaətinə gəlinib;
- Xalçaların təhlilində muzey informasiya bazası üçün vacib olan süjetlərin simvolik mənaları açıqlanaraq, həmçinin təsvirlərin fəlsəfi mahiyyəti üzə çıxarılaraq belə bir qənaətə gəlinib ki, muzey əhəmiyyətli bu sənət nümunələri geniş ictimai-tərbiyəvi gücə malikdir.

Dissertasiyanın **"Bədii sözün xalçalaşmasına muzeyşünaslıq və xalçaşünaslıq baxışı: süjetli xalçaların bədii sənətkarlıq xüsusiyyətləri"** adlı II fəsli üç yarımfəsildən ibarətdir. **"Azərbaycan ədəbiyyatı, mədəniyyəti və memarlıq nümunələrinin süjetli xalçalardakı əksi"** adlı I yarımfəsildə XIX əsrə aid "Dörd fəsil" və Namazlıq (Məkkə, Kəbə təsvirli) xalçalarında Azərbaycan ədəbiyyatı, mədəniyyəti və memarlıq nümunələrinin əks olunması təhlil edilmişdir. H. Аскерова "Влияние архитектуры на ковровые композиции" adlı məqaləsində memarlığın xalça sənətinə təsirindən bəhs edərək yazır: "Yaxın və Orta Şərq ölkələrində olduğu kimi Azərbaycan xalçalarına da memarlıq öz təsirini göstərmişdir. Memarlığın təsirini xalça sənətindəki terminlərdən də ("pəncərə", "baca", "ocaq", "tağ", "kətəbə", "kaşı", "minarə", "minarə-başı", "məhəccər", "qəndil" və s.) görmək olar. Memarlıq nümunələri bəzən xalçada köməkçi və ya doldurucu element, bəzi kompozisiyalarda isə ara sahədə və əsas motiv kimi verilir".[1] "Dörd fəsil" xalçalarının muzey mənbəşünaslığı baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanmışdır. Belə ki, bu xalçalarda verilən Tağe-Kəsra, Ulcaytu-Sultaniyyə, Təxti-Cəmşid və Göy məscid kimi möhtəşəm tarixi memarlıq abidələri, haşiyələrdəki dini süjetlər və ədəbi şəxsiyyətlərin portretləri təhlil edilmişdir.

Azərbaycan ədəbiyyatı, mədəniyyəti və memarlıq nümunələrinin süjetli xalçalardakı əksini aşağıdakı kimi nəticələndirmək olar:
- Muzeydə mühafizə olunan Azərbaycan mədəniyyətini özündə təcəssüm etdirən, klassik ədəbiyyat nümayəndələrini və onların əsərlərini, həmçinin memarlıq abidələrini özündə əks etdirən xalçalar unikallığı ilə fərqlənir;
- Xalçalarda əks olunan memarlıq abidələri tarixi fakt kimi dəyərlidir;

---

[1] Аскерова Н. «Влияние архитектуры на ковровые композиции» /«Искусство Восточных Ковров» Материалы международного симпозиума по искусству восточных ковров/. Баку: Элм, 1988, s.70.

- Tarix, ədəbiyyat, mədəniyyət və s. sahələr üzrə tədqiqatlar zamanı muzey əşyasına ilkin qaynaq kimi istinad olunur;
- Memarlıq abidələrinin təsvirində binanın bədii gözəlliyi ilə yanaşı, həm də onun proporsiya dəqiqliyi səlis təsvir edilib;
- Memarlıq abidələri təsvir olunan xalçalardakı süjetlər həm də simvolik və rəmzi məna daşıyır;
- Xalçalarda istifadə olunan rəng çalarları süjetin ideyasının açılmasına xidmət edir;
- Bu xalçalarda millətin dini-fəlsəfi dünyagörüşü təcəssüm etdirilib;
- Nizami muzeyindəki xalçalarla xarici muzeylərdəki oxşar süjetli Azərbaycan xalçaları müqayisə edilərək, belə bir nəticəyə gəlinir ki, bu xalçaların kökü eyni ənənəyə söykənmiş, eyni əqidəyə xidmət edərək, zaman axınında inkişaf edib, mükəmməlləşdirilmişdir.

II fəslin **"Nağıl obrazları və süjetləri xalçalarda"** adlı II yarımfəslində Azərbaycan şifahi xalq ədəbiyyatı süjetləri, o cümlədən dastan, nağıl və s. xalça sənətində geniş istifadə edildiyindən bəhs olunmuşdur. Bu yarımfəsildə XIX əsrə aid "Məlikməmmədin simurq quşunun balalarını xilas etməsi" süjeti üzrə toxunan xalçanın üzərindəki təbiət, insan, heyvan təsvirləri və onların qədim inanclarla bağlılığı araşdırılmışdır. Xalçalarda nağıl obrazları və süjetlərinin tədqiqi aşağıdakı nəticəyə gəlməyə əsas verir:
- Xalçalardakı nağıl süjetlərindəki fantastik heyvan, quş, ağac təsvirləri magik inanclarla bağlıdır;
- Nağıl obrazları və süjetləri türkdilli xalqların həyatı, məişəti, folkloru, mifoligiyası ilə bağlı olub, müxtəlif sahələrdə – şifahi xalq ədəbiyyatında, qədim insan məskənlərində, təsviri sənətin müxtəlif sahələrində istifadə olunan ortaq süjetlərdir.

II fəslin **"Xalq dastanlarının mövzu və süjet elementlərinin xalça kompozisiyalarında tətbiqi"** adlı III yarımfəslində "Yusif və Züleyxa", "Molla Nəsrəddin" və "Kitabi-Dədə Qorqud" dastanı üzrə toxunan xalçalar həm dekorativ-tətbiqi sənət, həm muzeyşünaslıq, həm də ədəbiyyat baxımından təhlil edilib. "Yusif və Züleyxa" süjeti üzrə toxunan xalçanın həm süjet xətti, həm də haşiyələrdə verilən fars dilində olan yazılar tədqiq olunmuşdur. Həmçinin, xalçalar üzərində verilən yazıların funksiyaları araşdırılmışdır. Bu yarımfəsildə aşağıdakı qənaətə gəlinib:
- Muzey ekspozisiyasında sərgilənən xalçalara tamaşa edən hər bir insan nağıl və dastanlarımızın tarixi haqqında məlumat alır. Çünki, xalçanı

toxuyan rəssam və toxucu vaxtilə dinlədikləri nağıl və dastanları öz təxəyyülündə canlandıraraq xalçaya tətbiq etmişdir;
- Muzey pedaqogikasına əsaslanaraq müxtəlif yaş qrupuna aid tamaşaçılara xitab edən ekskursiya mətnləri xalçaların muzey əhəmiyyətinin qavranılmasına təkan verir;
- Xalçalardakı xalq dastanlarından götürülmüş mövzu və süjetlər həm təsvirlərin səlis əks olunması, həm də ədəbiyyat nümunələrinin şərhi baxımından qiymətlidir;
- Xalçalarda istifadə olunan yazılar həm süjetlərin açılmasına xidmət edir, həm də xalçanın ornamental bəzəklərinin gözəlliyinin artmasına təkan verir;
- Xalq dastanlarındakı süjet və obrazların fəlsəfi mahiyyətinin gücü, bu təsvirlərin müasir xalça rəssamlarının yaradıcılığında da yer almasına zəmin yaradır.

Dissertasiyanın **"Nizami muzeyinin ekspozisiya və fondlarındakı portretli və ornamental xalçaların özünəməxsus xüsusiyyətləri"** adlı III fəsli iki yarımfəsildən ibarətdir. **"Azərbaycan klassiklərinin portretlərinin xalçalarda təsviri"** adlı I yarımfəsildə portret janrının tarixi, Azərbaycanda bu janrın inkişafı və xalçalarda tətbiqi məsələsindən bəhs edilib. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri İ.Nəsimi,C.Cabbarlı, M.Şəhriyar, C.Məmmədquluzadə, Əcəmi Naxçıvani və başqalarının obrazları əks olunan portretli xalçalar tədqiq edilib. Esmira Fuad portretli xalçaların toxunmasının nə qədər çətin olduğunu vurğulayaraq yazır: "Xalçada portret yaratmaq üçün rəssam fikri, xarakteri çox dəqiq verməlidir, oxşarlıq, bənzərlik əsas şərtdir, çünki xarakter ilmələrə keçiriləndə bu bənzərliyin 20 faizi itir".[1] Nizami muzeyinin portretli xalçalarında verilən hər bir obraz Azərbaycan ədəbiyyatı və mədəniyyəti üçün çox dəyərli əsərlər yaratmış şəxsiyyətlərdir. Onların yaradıcı təxəyyülü, əsərlərinin novatorluğu və əxlaqi-tərbiyəvi mahiyyəti, yaşayıb-yaratdığı dövrün tarixiliyi muzey əhəmiyyəti kəsb edir. Məhz bu səbəbdən bu ədiblərin obrazları ilmələr vasitəsilə xalçalarda əks olunub. Portretli xalçalar elə dəqiqliklə toxunub ki, ekspozisiya zalına daxil olarkən sanki bu ədəbi şəxsiyyətlər özləri canlı olaraq tamaşaçını qarşılayır.

Yarımfəslin sonunda belə qənaətə gəlinir:
- Portretli xalçalar ekspozisiyada təlimata əsasən işıq-kölgə, ölçü, rənglərin keçidi və s. cəhətlər nəzərə alınmaqla nümayiş olunur;

[1] Fuad E. Azərbaycan xalça sənətinin Kamili. Bakı: Altun kitab, 2006, s.80

- Azərbaycanda portret janrı qədim köklərə malikdir;
- Xalça sənətində portret janrı milli ənənələr üzərində duraraq, qədim ornametlər ilə əhatələnib;
- Klassik xalçalarda başlıca olaraq sevgi, ov və müharibə səhnələri süjet xəttini təşkil edirdisə, müasir dövr xalçalarında mövzu daha geniş sahələrə bölünür, portret müstəqil janr kimi öz təsdiqini tapır.

III fəslin **"Ornamental xalçalar və onların spesifik xüsusiyyətləri"** adlı II yarımfəslində XIX-XX əsrlərə aid Quba, Şirvan, Bakı, Qarabağ, Təbriz xalça məktəblərinə aid olan "Çiçi", "Pirəbədil", "Səlyan", "Fındığan", "Balıq", "Kilim", "Qədirqə", "Ağaclı" xovlu, xovsuz xalçalar, o cümlədən, çul, xurcun və s. xalça məmulatlarının kompozisiyaları, ornamentləri, elementləri, rəng həlli, aid olduqları xalça məktəbləri və toxunma tarixləri araşdırılıb. Ən qədim xalçalar məhz ornamental xalçalardır. Çünki bütün kompozisiyalar məhz ornamental xalçalara əsaslanaraq inkişaf etmişdir. Ən qədim insan məskənlərində qırıq-qırıq həndəsi və nəbati elementlərə rast gəlinir. Beləliklə, bu elementlər əsrlər keçdikcə təkmilləşərək, kompozisiya və süjetlərin yaranmasında mənbə rolunu oynamışdır. Xalçalarda verilən elementlər simvolik məna kəsb edir. Xalça elementləri tarixi əhəmiyyət daşımaqla yanaşı, xalqımızın həyat və məişətini, təfəkkürünü, dünya-görüşünü özündə əks etdirir. Deməli, tarixi, muzey, etnoqrafik əhəmiyyətli bu xalçalar qorunmalı və qayğıyla gələcək nəsillərə ötürülməlidir. Bunu isə ən mükəmməl formada məhz muzeylər həyata keçirir. Nizami muzeyində də bu istiqamət əsas götürülərək gələn tamaşaçılara ədəbiyyat nümunələri ilə yanaşı xalçalar da təqdim olunur.

Muzeydə mühafizə olunan ornamental xalçaların tədqiqi və təhlili bizə aşağıdakı nəticələri deməyə imkan verir:
- Nizami muzeyinin ekspozisiyasında süjetli xalçalarla yanaşı, ornamental xalçaların da təbliği işi həyata keçirilir;
- Nizami muzeyində mühafizə olunan ornamental xalça və xalça məmulatlarında ornament, naxış elementləri, rəng çalarları daha qədim Azərbaycan ornamental xalça sənəti ənənələri üzərində yaranan sənət əsərləridir;
- Azərbaycan xalçalarında ornament – müəyyən qanunauyğunluqla düzülmüş bəzək mahiyyətli (estetik görünüşlü, bəzən isə semantik təyinatlı) elementlərdən ibarətdir;
- Azərbaycan xalçalarında ornamentin ana xəttini təşkil etməkdə olan təkrarlanan element bəzən mücərrəd forma/fiqurlardan, bəzən də stilizə

edilmiş (yəni bəsitləşdirilərək bədiiləşdirilən) real surətlərdən təşəkkül tapmışdır;
- Xalçalarda stilizə edilmiş real surətlər (gerçək həyatda mövcud olan təbii surətlər) insanın subyektiv təxəyyülü vasitəsi ilə tanınmaz dərəcəyədək dəyişilir; başqa sözlə insanın təsvir etmək istədiyi əşya və hadisələrin ilahi xilqəti şərtiləşdirilmiş bəşəri ifadə şəklinə salınır;
- Ornamental xalçaların çoxəsrlik tarixinin və çeşid zənginliyinin öyrənilməsi onu deməyə imkan verir ki, onun başlıca məqsədi varlıq aləmini dərk etdirmək və insanın bu aləm içində həyat uğrundakı fəaliyyətinin özünü və onun məhsullarını əks etdirməkdir;
- Yaradıcı xalça ustaları süni yaradılmış estetik surət və rəmzlərin yolu ilə Gözəgörünməz Tanrının ən gözəl biçimdə yaratmış olduğu aləmi sirr və şərtiliklərlə bağlayaraq ornament adlı bir gizli dil icad etmiş və gündən-günə, ildən-ilə onu təkmilləşdirərək eyni zamanda gözü dincəldən, zehni təmizləyən, ürəyi sakitləşdirən, zəkanı düşündürən, ruhu saflaşdıran hala gətirmişdir.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilərək aşağıdakı qənaətə gəlinir:

- Azərbaycan xalça sənəti milli mədəniyyətimizin ayrılmaz və ağır məna yükü daşıyan tərkib hissəsidir.

- Azərbaycan xalqı öz ənənələrini və mədəniyyətini misilsiz xəzinə kimi əziz tutaraq qayğı ilə qoruyub saxlamışdır. Bu işdə Azərbaycan muzeylərinin, o cümlədən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin xidmətləri danılmazdır.

- Nizami muzeyi xalçalar və ümumiyyətlə, muzeydə olan eksponatların mühafizəsi ilə yanaşı onların sistemli öyrənilməsini həyata keçirir, muzeyin kolleksiyalarının zənginləşdirilməsi məqsədilə ədəbiyyat və xalça sənətinin ən gözəl nümunələrini toplayaraq, onlar üzərində elmi-tədqiqat işləri aparır. Həmçinin, burada müxtəlif dövri elmi nəşrlərdə xalçalar və s. eksponatlar haqqında elmi məlumatlar çap etdirilir. Muzeyə gələn tamaşaçıların marağına səbəb ola biləcək sərgilər təşkil edilir.

- Nizami muzeyinin süjetli xalçaları ədəbi janrın lirik növü üzrə "Xəmsə" və "Dörd fəsil" xalçaları; epik növdə şifahi xalq ədəbiyyatı nümunələri (dastan və nağıllar) üzrə "Məlikməmmədin Simurq quşunun balalarını xilas etməsi", "Yusif və Züleyxa", "Kitabi-Dədə Qorqud", Xətainin "Dəhnaməsi" üzrə "Qış getdi, yenə bahar gəldi", "Molla Nəsrəddin" süjetləri və kompozisiya xüsusiyyətləri tədqiq edilərək belə bir

qənaətə gəlinir ki, xalq nağıllarının, dastanlarının və s. yaddaşlara həkk olunmasında məhz belə vizual təsvirlərin əvəzsiz rolu olmuşdur.

- Fars dili üçün işlənən çətin ərəb hərfləri rəssam və toxucunun bacarıqlı əlləri vasitəsilə xalçalara köçürülərək həm bəzək elementi, həm də çox dəyərli məxəzlər kimi ikili funksiya daşıyır.

- Süjetli xalçalar üzərində təqdim olunan klassik şairlərin əsərlərindən ibarət poetik misralar tədqiq olunaraq xalçanın süjet xətti ilə müqayisəli təhlil edilmiş, yeni faktlar əldə edilmişdir. Belə ki, XIX əsrə aid "Leyli və Məcnunun səhrada görüşü" süjeti üzrə toxunan xalça üzərində verilən yazıların tədqiqi zamanı bu misraların Nizami Gəncəvinin deyil, Cəlaləddin Ruminin “Məsnəviyi-mənəvisi”ndən götürüldüyü məlum olmuşdur. Vəzn baxımından yanaşılırsa, Nizami Gəncəvinin “Leyli və Məcnun” poeması həzəc, Cəlaləddin Ruminin əsəri isə rəməl bəhrindədir. “Leyli və Məcnun” süjeti üzrə toxunan bu xalçanın üzərindəki misralar da rəməl bəhrindədir.

- "Dörd fəsil" xalçalarında mərkəzdə məşhur şəxslərin, hökmdar və ya ədəbi şəxsiyyətlərin təsviri verildiyi halda, konfrans zalında nümayiş olunan xalçanın mərkəzi medalyonunda "Tağe-Kəsra" sarayının üstündə quş kəllə didir. Burada “Kəlleyi Keykavus” sözləri yazılıb. Tədqiqat zamanı məlum oldu ki, vaxtilə Ömər Xəyyam öz rübailərinin birində məhz bu səhnəni təsvir edib. Bu xalçanın digər özünəməxsus cəhəti burada yay fəslində verilən təsvirlərin işıq-kölgə effektində verilməsidir. Bu cəhət digər "Dörd fəsil" xalçalarında müşahidə olunmur.

- Tədqiqat zamanı "Yusif və Züleyxa" süjeti üzrə toxunan xalça üzərində verilən misraların tam şəkildə Əbdürrəhman Caminin “Yusif və Züleyxa” əsərindən olmadığı məlum oldu. Aydın olmuşdur ki, xalçanın müəllifləri Şərqin böyük klassikinin şah əsərlərindən birinə müraciət etdikdə, çox da dəqiq olmağa çalışmamış, onun sətirlərində dəyişikliklərə yol vermişlər.

- Nizami muzeyindəki Namazlıq (Məkkə, Kəbə təsvirli) xalçasında məhz məscid kompleksi bütövlükdə öz əksini tapmışdır. Bu cəhət digər muzeylərdəki xalçaların heç birində rast gəlinmədi. Onların əksəriyyətində dini abidənin müəyyən hissəsi təsvir olunmuşdur.

- Nizami muzeyi xalçaları ilə digər yerli və xarici muzeylərdə olan xalçaların ümumi ortaq cəhəti onların kompozisiyası, flora, fauna, antropomorf təsvirlər, həndəsi və nəbati elementləridir. Fərqli cəhət bu əşyaların toxunma tarixidir. Belə ki, Nizami muzeyində olan xalçalar XIX-XX əsrlərə aiddir. Metropolitan və İstanbul Xalça Muzeyində isə XV-

XVI əsrlərə aid olan xalça nümunələri mövcuddur. Fərqli cəhətlərdən digərləri isə kompozisiyalarda verilən xırdalıqlar və s.dir.

- Tədqiqat işində Nizami muzeyinin xalçaları vasitəsilə mədəniyyət və ədəbiyyatımızın təbliğatı məsələsi araşdırılmışdır. Belə ki, N.Gəncəvinin yubileyi münasibətilə toxunan xalçalarda "Xəmsə" poemaları süjetlərinin verilməsi, xalçalar üzərində verilən yazılar, poetik şeir nümunələri və s. verilməsi məhz ədəbiyyatımızın xalçalar vasitəsilə təbliğatıdır.

- Tədqiqat işində Nizami muzeyinin xalça fonduna daxil olan xalçaların daşıdıqları bir neçə funksiya təhlil edilib. Belə ki, bu xalçaların hər biri özündə aşağıdakı cəhətləri əks etdirir:

- Xalçalar toxunma texnikası, materialı, tarixiliyi, bədiiliyi, elmiliyi baxımından muzey əhəmiyyətli dekorativ-tətbiqi sənət nümunələridir;

- Xalçalar özündə Azərbaycanın zəngin ədəbiyyatını tərənnüm edir;

- Xalçalar Azərbaycanın geyim mədəniyyətini əks etdirir;

- Xalçaların əksəriyyətinin Azərbaycanın dəyərli elm və mədəniyyət xadimlərinin şəxsi əşyaları olduğunu nəzərə alsaq, deyə bilərik ki, bu xalçalar həmçinin məşhur yazıçı və şairlərin nəfəsini, ruhunu özündə yaşadır;

- Muzeydə mühafizə olunan xalçalar bir daha sübut edir ki, Azərbaycan milli ornamentləri regional mədəniyyətlərdən seçilərək dünya xalqlarının yaradıcı təfəkkürü cərgəsində orijinal bir yer tutur;

- Azərbaycanın Manna, Midiya, Atropatena və Qafqaz Albaniyası kimi qədim dövlətlərində mövcud olmuş mədəniyyətlərə xas, Tunc dövründən qalma daş, metal və keramik əşyaların üzərində həkk olunan ornament elementlərini bu gün Azərbaycan xalçalarında, o cümlədən, muzeydə mövcud olan xalçalarda görmək olar;

- Muzeyin kolleksiyasındakı xalçaların araşdırılması belə bir nəticəyə gətirib çıxarır ki, xalça üzərindəki bu və ya digər təsviri elementlər təkcə estetik xarakter daşımamış, eyni zamanda onların hər biri öz-özlüyündə xüsusi rəmzi mənalar da kəsb etmişdir;

- Muzeydəki xalçaların üzərindəki elementlərin hər birinin xalça üzərində öz yeri, işlədilmə məqamı var;

- Azərbaycanın sənət nümunələri, o cümlədən, Azərbaycan xalçalarında verilən ornamentlər xalqımızın etnogenezinin qədim əsasını qoruyub saxlayan qiymətli tarixdir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Şifahi xalq ədəbiyyatı, folklor və mifologiya nümunələrinin xalçalarda təsviri // "Təsviri və dekorativ tətbiqi sənət məsələləri" toplusu, Bakı, 2013, № 2 (12), s. 16-20.
2. Nizami Gəncəvinin əsərlərində dekorativ-tətbiqi sənət nümunələri // "Mədəni Həyat" jurnalı, Bakı, 2014, №11, s.65-67.
3. Azərbaycan tarixi və xalça sənətinin qarşılıqlı kontekstdə təbliğində muzeylərin rolu // Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu V Respublika elmi konfransının materialları (7 aprel), Bakı, 2015, s.258-261.
4. Təsviri sənətdən ilmələr aləminə: poetik süjetli miniatür əsərlər xalça nümunələrində // Gənc tədqiqatçıların III beynəlxalq elmi konfransı (17-18 aprel), Bakı, 2015, s.825-826.
5. "Xəmsə" poemaları motivlərinin miniatür sənəti və süjetli xalçalarda əksi // "Təsviri və dekorativ tətbiqi sənət məsələləri" toplusu № 3 (17), Bakı, Təknur, 2015. s.83-90.
6. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin xalça fondundakı nümunələrdə istifadə olunan kompozisiya və elementlər // "Risalə" araşdırmalar toplusu №12, Bakı, 2016, s.187-195.
7. İlmələrdə yaşayan "Xəmsə" motivləri // "Nizami və dünya mədəniyyəti" mövzusunda respublika elmi konfransının materialları. Bakı, 2016, s.209-210.
8. О сюжетной линии ковров "Времени года" Национального музея Азербайджанской Литературы имени Низами Гянджеви // "Ізденис" – "Поиск": международный научный журнал-приложение Республики Казахстан, 2017, № 2, стр. 51-57.
9. Azərbaycan klassiklərinin obrazları Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin portretli xalçalarında // "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə, XXXIII buraxılış. Bakı, 2017, s.103-111.

**Altun Mammadhuseyn Mikayilli**

## GENEROUS AND COMPOSITE PECULIARITIES OF WORKS OF CARPET FUND MUSEUM OF NIZAMI

### SUMMARY

The thesis consists of an Introduction, three chapters, seven sub-chapters, a conclusion, a list of used literature and illustrations.
In the Introduction, the relevance of the topic is substantiated, the degree of problem development, the object and the subject, the goals and tasks, theoretical and methodological bases of research, the source study base, scientific novelty, theoretical and practical significance and its approbation are revealed.

In the thesis, the genre and compositional features of the works entering the carpet fund of the Nizami Museum were analyzed.

In the first chapter of the dissertation, entitled **"Theme, idea and structural features of the works of the carpet fund of the museum of Nizami in the plane of museum studies and carpet weaving"**, the artistic and technical features of carpets stored in the museum of Nizami were investigated. The question of the application of the stories from "Hamsa" on carpets, which has historical, artistic and scientific significance, as well as its museum importance is underlined.

In the second chapter of the thesis titled **"A look at the artistic word transformed into a carpet from the point of view of museology and carpet science: Features of the artistry of plot carpets"**, the wide use of Azerbaijani literature, culture and architectural designs, including Azerbaijani folklore, folk epics and carpet art, is noted. It was emphasized that museum items are the primary source for various fields of science.

In the third chapter of the thesis, entitled **"Peculiar features of exposition and stock portraiture and ornamental carpets of Nizami Museum"** describes the history of the portrait genre, its development in Azerbaijan and the application of it to carpets stored in the museum, as well as compositions, color solutions, carpet schools, to which they refer and dates of production of pile, lint-free carpets and other carpets. The issue of their propaganda in the museum was covered.

In general, during the study, a comparison was made between carpets stored in the carpet fund of the Nizami Museum and other

Azerbaijani carpets in local and foreign museums, similar and distinctive features were found. Such a comparative analysis shows that the carpets stored in the museum of Nizami were woven on the basis of the traditions of Azerbaijani carpet art, which has more ancient historical roots.

In the **conclusion**, the main points of the study were noted.

**Алтун Мамедгусейн гызы Микаиллы**

# ЖАНРОВЫЕ И КОМПОЗИЦИОННЫЕ ОСОБЕННОСТИ ПРОИЗВЕДЕНИЙ КОВРОВОГО ФОНДА МУЗЕЯ НИЗАМИ

## РЕЗЮМЕ

Диссертационная работа состоит из Введения, трёх глав, семи под-глав, заключения, списка использованной литературы и иллюст-раций.

В Введении обосновывается актуальность темы, раскрывается степень разработки проблемы, объект и предмет, цели и задачи, теоретические и методологические основы исследования, база источниковедения, научная новизна, теоретическое и практическое значение и ее апробация.

В диссертации были проанализированы жанровые и композиционные особенности произведений, поступающих в ковровый фонд Музея Низами.

В первой главе диссертации под названием **«Тема, идея и структурные особенности произведений коврового фонда музея Низами в плоскости музееведения и ковроведения»**, были исследованы художественные и технические особенности ковров, хранящихся в музее Низами. Был проанализирован вопрос применения на коврах сюжетов из «Хамса» ("Пятерица"), который несёт историческое, художественное и научное значение, а также подчёркнута ее музейная важность.

Во второй главе диссертации под названием **«Взгляд на преобразившегося в ковер художественного слова с точки зрения музееведения и ковроведения: особенности художественного мастерства сюжетных ковров»** отмечается широкое применение азербайджанской литературы, культуры и архитектурных образцов, в том числе азербайджанского фольклора, народных эпосов в ковровое искусство. Было подчеркнуто, что музейные предметы являются первичным источником для различных областей науки.

В третьей главе диссертации под названием **«Своеобразные особенности экспозиционных и фондовых портретных и орнаментальных ковров Музея Низами»** описывается история портретного жанра, его развитие в Азербайджане и вопрос

применения на коврах, хранящихся в музее, а также были исследованы композиции, цветовые решения, ковровые школы, к которым они относятся и даты производства ворсовых, безворсовых ковров и других ковровых изделий. Был освещен вопрос их пропаганды в музее.

В общем во время исследования было проведено сравнение между коврами, хранящимися в ковровом фонде Музея Низами с другими Азербайджанскими коврами, находящихся в местных и зарубежных музеях, были обнаружены сходные и отличительные черты. Такой сравнительный анализ показывает, что ковры, хранящиеся в музее Низами, были сотканы на основе традиций азербайджанского коврового искусства, имеющего более древние исторические корни.

В **Заключении** были отмечены основные положения исследования.

Kağız formatı:60/84  16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**

*На правах рукописи*

**АЛТУН МАМЕДГУСЕЙН гызы МИКАИЛЛЫ**

# ЖАНРОВЫЕ И КОМПОЗИЦИОННЫЕ ОСОБЕННОСТИ ПРОИЗВЕДЕНИЙ КОВРОВОГО ФОНДА ЛИТЕРАТУРНОГО МУЗЕЯ ИМЕНИ НИЗАМИ

**6220.01 – Музееведение**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по искусствоведению**

**ВАКУ – 2017**